# Bakıda ABŞ-nin Müstəqillik Günü qeyd edilib





İyunun 23-də ABŞ-nin Azərbaycandakı səfirliyi ölkəsinin müstəqilliyinin elan olunmasının 247-ci ildönümü ilə əlaqədar Bakıda tədbir təşkil edib.

AZƏRTAC xəbər verir ki, tədbirdə əvvəlcə Azərbaycan Musiqi Akademiyasının xorunun ifasında Azərbaycanın və ABŞ-ın Dövlət himnləri səsləndirilib.

Tədbirdə çıxış edən Amerika Birləşmiş Ştatlarının ölkəmizdəki səfirliyinin müvəqqəti işlər vəkili Hüqo Qevara bildirib ki, ABŞ-nin Azərbaycanla 30 ildə əməkdaşlıq əlaqələri genişlənib, şaxələnib. O, ABŞ-Azərbaycan münasibətlərindən söz açaraq, bu əməkdaşlığın indi də



müxtəlif istiqamətlərdə davam etdiyini vurğulayıb. Sonra çıxış edən Azərbaycanın maliyyə naziri Samir Şərifov ötən il Azərbaycan və ABŞ arasında diplomatik münasibətlərin 30-cu ildönümünün qeyd edildiyini bildirib. "İnanırıq ki, ABŞ Cənubi Qafqaz regionunda uzunmüddətli sülh və təhlükəsizliyin bərqərar edilməsini, Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin yenidən qurularaq ölkə iqtisadiyyatına reinteqrasiyasını və tarixi torpaqlarımıza Böyük qayıdışın təmin olunmasına yönəlmiş Azərbaycan dövlətinin səylərini bölüşür və bu səyləri dəstəkləyəcək", - deyə nazir əlavə edib.

Tədbirdə rəsmi şəxslər, Milli Məclisin deputatları, xarici ölkələrin Azərbaycandakı səfirləri, beynəlxalq təşkilatların təmsilçiləri, media nümayəndələri iştirak ediblər.

Azərbaycan.- 2023.- 24 iyun.- S.10.